Ədalət 2019.- 21 noyabr.- S.6.

# Bəxtiyar Aslanın yaradıcılığı: simvolizm və impressionizm qovşağında

(əvvəli ötən sayımızda)

**Bəxtiyar Aslan ”Mirzənin dərəsi” hekayəsində ”Mirzə kimdi?” sualına cavab axtarması məhz dünyanın dəyişdirilməsi fikri əsas leytmotiv kimi özünü göstərir: ”Bir çavuş ola bilərmi? Mirzə çavuş?.. Əsgər çavuşu? İşçi çavuşu? Bəlkə də məzhəb çavuşu? Mirzə, çavuş olmalıdı, çavuş. Mirzə adına ən çox yaraşan çavuşdu. Təkrarla və istədiyin qədər bax. Mirzə çavuş, Mirzə çavuş, Mirzə çavuş...”. Müəllifin bu suallarına cavab dünyada əmin-amanlığın pozulmasının aqibətini göstərir. Müəllif günahsız insanları bir çox rakursda verməyə qadir olur. Müəllif insanları münaqişə qurbanı kimi, müharibə qurbanı kimi verir: ”... bir silah atılır. Mirzənin dərəsində bir pis, qaranlıq hiss kimi meydana çıxan silah atılır. Kölgəsi böyüyərək gələn isti bir güllə öpür məni sol sinəmdən. Sağ çiyninə buluddan bir baş örtüyü sallanır. Onun ucuyla göz yaşlarını silir.**

- Mirzə sənsən, - deyir pıçıltıyla.

Əyilib sinəmdəki yaradan öpür sanki.”

Bəxtiyar Aslan müharibə, münaqişə qurbanı olmuş insanların, şəhidlərin unudulmayacağı amilini qabartmaqla yanaşı insanları sülh qurucuları, münaqişə demiurqu olmaları amilini də yada salır. Müəllif ”Bu gecə silahlar dillənəcək. Heç olmasa tək bir silah bir neçə dəfə açılacaq. Biri, - necəsə kim olduğunu bilirəm, lakin hissimin reallaşmasından qorxduğuma görə onu özümdən qovmağa çalışıram, - yolunu kəsmək istəyən, ”dayan, getmə”, deyən kimi silahdan çıxan güllələrin önündə dayanacaq, qarşısına keçəcək. Tətiyi kimin basdığının nə önəmi var? Bəlkə də mən basaram. Bəlkə də bu dərənin içində boğulub qalmaqdan qorxduğum Mirzə” Bəxtiyar Aslan məhz bu fikri ilə yaradıcılıq prosesində dünyanı dəyişdirilməsinin əsas leytmotiv kimi özünü göstərdiyini bir daha təsdiq edə bilir.

Bəxtiyar Aslan ani təəssüratların ötəri, lakin daxili vəhdət və əlaqədə verə bilməsi ilə oxucunun diqqətini əsərinə yönəldə bilir.

### İmpressionist üslubun

səciyyəvi cəhətlərinə xas xüsusiyyətləri əks etdirən müəllif məhz özünün ”dolayı” həqiqəti ilə açıqlamaq istədiyi məqamlara aydınlıq gətirməyə nail ola bilir. Qeyd edək ki, müəllifin əsərlərində hadisələr gerçəkliyin dinamikadan uzaq, hər şeyi bilən təhkiyəçi, yəni üçüncü şəxs tərəfindən nəql edilməsi ilə diqqəti cəlb edir. Yazıçının ”Qar və düyün” hekayəsində maraqlı bədii priyomlardan istifadə seçilmiş süjetin prizmasından moral mövqenin ümumi şəkildə təsvir edilməsi diqqəti cəlb edir. Məsələn, artıq dünyada olmayan insanın düşüncə və hisslərinin üçüncü şəxsin dilindən nəql edilməsi, ani təəssüratların ötəri də olsa, daxili vəhdət və əlaqədə verilməsi maraq kəsb edir: ”Qar günlərlə, ara vermədən, heç ara verməyəcək kimi yağdı. Sanki göy üzündə minlərlə ağ quş vurulub düşürdü yerə. Dağlar sürətlə ağardı, düzənlik sürətlə bütün rənglərdən təmizləndi. Gecə və gündüzü eyni səs əsarəti altına aldı. Dağların arasından qorxuyla keçərkən qurd ulamalarını Ay işığına qarışıb işıq saçdığını gördüm. Hurini, yəni səni belə bir qarın içində görüb sevmişdim.”

Bəxtiyar Aslanın əsərlərində bədii ifadələrin dominant bir xüsusiyyəti kimi ilk təəssüratların ötürülməsi, təsadüfi detallar üzərində qurulması, subyektivliyin ön plana çəkilməsi, təsvir edilən hadisələrin necə qavranılması, nəyin necə dərk edilməsi özünü göstərir.

### Müəllifin ”Köpük” hekayəsində

bədii ifadələrin dominant bir xüsusiyyəti kimi ilk təəssüratların ötürülməsi təsvir edilən hadisənin qavranılması və dərki üçün izahatlar verilir. Əsərdə qəhrəmanın ikiləşməsinin prosesi dominant bir xüsusiyyət kimi nəql edilir: **”... İlahi, yoxsa bu mənəm? Heybəni çiyninə atıb aparmağını boş yerə gözləyirəm? Gəlmədimi, gəlməyəcəkmi? Boş yerə gözləyirəmmi, İlahi?” Qəhrəmanın ikiləşməsinin təqdimi zamanı ilk təəssüratın ötürülməsi oxucunu düşündürməyə vadar edir. Müəllif oxucunu çox intizarda saxlamayaraq, obrazın ikiləşməsi amilini açıqlamağa nail ola bilir:**

**”Ehtiyatla heybədən çıxıram, sıyırılıb enirəm dirəyin kirli üstündən. Düşəndə onun yerə, torpağa uzandığını və başını həmin kirli üzü oyuqlarla dolu daşa söykədiyini görürəm. Yanına gəlib çatanda durub dirəkdən yapışır, bir anlıq eləcə dayanır. Həmin andaca, o bir anlıq boşluqda qaranlığı dəlib keçən gözlərini görürəm. Sürüşüb yerə düşürəm, ayaqlarının dibinə yıxılıb qalıram. Olduğum yerdə az əvvəl gördüyüm gözlərin mənə aid olduğunu anlayıram.”**



Bəxtiyar Aslanın ”Qar və düyün” hekayəsində bənzətmələr dominant bir xüsusiyyəti kimi ilk təəssüratların ötürülməsi baxımından oxucunu düşünməyə, təsvir edilən hadisələrin qavranılmasına vadar edir. Fəlsəfi düşüncələrlə hadisələrə məntiqi yanaşan müəllif çatdırmaq istədiyi təəssüratları ilə fikirlərini çatdırmağa nail ola bilir: ”Ağaclar... Göyə uzanan əllər kimidir ağaclar... Neçə barmağı var ağacların? Kimin qolları, kimin bədənidir ağaclar?”

Bəxtiyar Aslanın əsərlərində duyğuların, hisslərin, emosiyaların təsviri, qəhrəmanların daxili həyəcan və sarsıntılarının əks olunması ümumiləşdirilmiş obraz daxilində verilmir. Müəllif ümumiləşdirilmiş obraz və tiplər yaratmağa səy göstərmir.

### Ümumiləşdirilmiş obraz və tiplər

yaratmaqdan uzaqlaşaraq, fərdilik yəni individualizm üzərində dayanmağa üstünlük verir. Bəxtiyar Aslanın ”Aramızda danışan” hekayəsində ”ayrılığın yükünü təkbaşına daşımağa gücü” çatmayan insanın ümumiləşdirilmiş obrazına deyil, məhz individuallığına diqqət yetirilir. Yazıçı nakam məhəbbət yaşamış insanın fərdi düşüncələrinin təsviri ilə duyğuların, hisslərin, emosiyaların təsvirini, daxili həyəcan və sarsıntılarını əks etdirir: ”Bu eşq bir düşüncənin körpəsidir, təsdiqin, ya da inkarın deyil. Bu üzdən sözləşməyə ehtiyacımız yoxdu. Bəlkə, bunu mən deyirəm. Yaxud sən... aramızda bir başqasının danışması dilin ortadan yox olmasıdırmı? Yoxsa üçüncü bir dildimi bizi sorğu-sual edən? Hər nəsə... baxdıqca dəyişir, dalğalanır...”

Əbədi dəyərləri özündə ehtiva edən hekayələrində yazıçı təsvir etdiyi obrazları incə ştrixlərlə oxucunun gözündə canlandırır. Müəllifin əsərlərində epizodik obrazların da duyğuları, hissləri, emosiyaları, həmçinin daxili həyəcan və sarsıntıları bütün detalları təqdim edir: **”Geri döndüm və sənin gəldiyini gördüm. Ayaqlarımı sürüyərək yüyürdüm. Adətim belədi. Sağ tərəfimdə uzun, qarasaçlı, badamgözlü bir qız vardı. Adını xatırlayıram. Heç bir şey demədən, çəkinmədən gəlib qoluma girmişdi. Badamgözlü, uzun saçlıydı. Məndə qalan fotoqrafın solmayan qırıntılarıydı bunlar. Bir də gülümsəməsi... qulağıma pıçıldadığı cümlələrdən çox bədənimə hopan qoxusunu xatırlayıram indi nədənsə.”** Göründüyü kimi, müəllif ictimai məsələlərdən uzaqlaşaraq, şəxsi əhval-ruhiyyə və təəssüratın əks etdirməyə cəhd etmişdir.

Bəxtiyar Aslanın əsərlərində kompozisiyanın parçalanması, yeni fraqment formalardan istifadəyə, təhkiyəni yarımçıq qoyulmasına, bir-biri ilə əlaqəsi olmayan fikirlərin işlədilməsinə üstünlük verilməsi kimi amillərə rast gəlmək mümkündür. Bu səbəbdən də müəllifin hekayələrini dərindən anlamaq üçün oxucunun hekayəni diqqətlə oxuması zəruriliyi meydana çıxır. Sevgilisinə xəyanət edən insanın daxili aləmini, həmçinin xəyanətinə ortaq olan insanın mənəvi dünyasını açıqlamağa cəhd etmiş müəllif bunu fraqmentlər şəklində təsvir edir: ”Öpüşdük də. O öpdü deyəsən, təklifsizcə. Amma ikimiz də bunun eşq olmadığını bilirdik. Oturduq, saçlarını sevdik. Bir çay kimi axdıqca çoxalırdı. Sevdik və işıqlı bir tərəfi olduğunu fərq etdik. Bunun sənə xəyanət demək olduğunu bilmirdim. Sözləşməmişdik. Aramızda səssiz, sözsüz gedib-gələn sözlərə rəğmən məni sevib sevmədiyini bilmirdim. Daha doğrusu, bilirdim, amma bunun söylənmiş, sözə tökülmüş bir elm qədər dəyəri yoxdu. Əslində, onu aşarkən belə...”

### Bəxtiyar Aslanın əsərlərində

bir-birilə ziddiyyət təşkil edən söz və ifadələrin işlənilməsi də nəzərdən qaçmır. Müəllifin ”Aramızda danışan” hekayəsində bir-birini təkzib edən və ziddiyyət təşkil edən söz və ifadələri işlədilməsinə rast gəlmək mümkündür. Yazıçı müqayisələrdən istifadə etməklə fikrini mükəmməl formada çatdırmağa nail ola bilir: ”Əyilib saçlarımı oxşadı, bir şey, su kimi, atəş kimi dirildən və öldürən bir şey pıçıldadı. Bu sirri kim söyləmişdi ona? Bunu necə etmişdi? Suyu və odu, ölümü və yaşamağı bir kəlmədə görüşdürməyin sirrini kim niyə vermişdi ona.”

Bəxtiyar Aslanın əsərlərində obrazlı əlaqələrin assosiativliyi əşyaları görünmədən təsvir etməklə, onların yaddaşlarda iz buraxılmasına əminlik yaradılmasında, qəhrəmanın keçmişindən, bu keçmişin yeni hadisə kimi qarşıya çıxan xatirələrində özünü göstərirdi. Fikir və hisslərin olduğu kimi daxili monoloq şəklində bədii əsərdə özünü büruzə verməsi Bəxtiyar Aslanın əsərlərinin obrazlı əlaqələrinin assosiativliyinin nəticəsidir. Məsələn, yazıçının ”Lacivərd” hekayəsində hadisələrin ziddiyyətli, təzadlı məqamlarının yaddaşlarda iz buraxması, şüur axınına ədəbi texnika kimi müraciət edilməsi diqqəti cəlb edir: ”...əslində, bir sonun, bəlkə də həyatın və ya ölümün rəmzi idi nəticədə. Hər şeyin mümkün və hər şeyin mümkünsüz olduğu bir yerdə, bir gerçəklikdə yaşayırdıq hər şeyi. Gerçəkliyin mümkünsüz olduğu... mümkünsüzlüyün gerçək olduğu... ikimizin obrazı bir obrazda...”

**Qeyd edək ki, Bəxtiyar Aslan qəhrəmanın keçmişindən və bu keçmişin yeni hadisə kimi qarşıya çıxan xatirələrində axıcı hadisə ardıcıllığı özünü göstərmir. Müəllif yalnız düşüncələrini, hisslərini daxili monoloq vasitəsilə əks etdirməyə qadir ola bilir.**

Bəxtiyar Aslanın əsərlərində əks səda şəklində təqdim edilən monoloqlar məhz qəhrəmanın exosu şəklində özünə göstərə bilir: ”Əlindəki gümüş aynaya çiyinlərinin üstündən baxırdım və sənin aynadakı üzünün gerçəkliyinin qıraqdakı üzünün gerçəkliyindən daha kəskin olduğunu dəqiqliklə görür, dəqiqliklə bilirdim. Bunun belə olması tamamilə sənin ayna gerçəkliyində yaşamağınla bağlıydı.”

Bəxtiyar Aslanın əsərlərində obrazların psixoanaliz düşüncə tərzi diqqətdən yayınmır. Həmçinin hekayələrdə düşüncə axını ardıcıllığını pozulması da özünü göstərir.

Yəni, əvvəl, orta və ya son kimi ardıcıllıq hekayələrdə gözlənilməməsi, yeni bu sıralanmanın pozulması özünü göstərir. Oxucu hekayəni istədiyi yerdən oxusa belə, hekayənin qavranılmasında problem yaranmır.

Bəxtiyar Aslanın əsərlərinin ideoloji və fəlsəfi məzmununda, bədii fikir və bədii üslubunda simvolizm və impressionizmin sintez təşkil etməsi maraqlı əsərlərin yaranmasına meydana açmışdır.

### Semantik yükün əsas aləti

**kimi çıxış edən simvolizmlə yanaşı mistisizm və mifyaradıcılığının, qəhrəmanların dünyalarının intuitiv dərki və s. müasir ədəbiyyatı maraqlandıran məsələlər kimi aktuallıq kəsb edirlər. Bu baxımdan, Bəxtiyar Aslanın əsərlərində həyat həqiqətlərini yazıçı təhkiyəsində, daxili monoloq və nağıl etməklə psixoloji düşüncənin, həmçinin şüur axınının oxucuya çatdırılmasına üstünlük verilməsi nəzərdən qaçmır. Yazıçının əsərlərində bədii fikrin həyata meydan oxumasının real təsviri, hadisələrin qurulması və insana xas həqiqəti ifadə etmək üzrə tənzimlənərək özünü göstərməkdədir. P. Elüar, B. Brext, P. Neruda, N. Hikmət, E. Heminquey, U. Folkner, Q. Qrin və s. sənətkarların əsərlərində özünü göstərmiş modernizm Bəxtiyar Aslanın yaradıcılığında davam etdirilməkdədir.**

**Salidə Şərifova**
**AMEA-nın professoru,**
**filologiya elmləri doktoru**